Respublika.- 2018.- 11 aprel.-S.6.

# Bol məhsul əldə etmək əzmilə

**Ağcabədi rayonunda torpaq bərəkətli, günəş şəfəqləri bol, insanlar isə çox zəhmətkeş, qoçaq və yurda daha çox bağlıdırlar. Rayonda həm əkinçiliyin, həm də heyvandarlığın inkişaf etdirilməsi üçün münbit şərait var. Həm də eyni zamanda burada pambıqçılıqla bağlı qabaqcıl təcrübə, gözəl ənənə mövcuddur. Bax, elə buna görə də rayonda kənd təsərrüfatı məhsullarının istehsalında yüksək nəticələr əldə olunur.**

Ölkəmizdə aqrar sektorun ənənəvi sahəsi olan pambıqçılığın inkişafı ilə əlaqədar rayonda bu sahənin dirçəldilməsi istiqamətində mühüm addımlar atılıb. Rayonun iqlim şəraiti, sakinlərin pambıqçılıq sahəsində təcrübəsi məhsul istehsalını artırmaq üçün stimul yaradır. Əgər ötən il rayon ərazisində 9950 hektarda pambıq əkilmişdisə, bu il əkin sahələri 10 min hektara çatdırılıb. 1851 nəfər istehsalçı ilə müqavilələr bağlanıb. İndi səpinə hazırlıq işləri aparılır.

Bərdədə pambıqçılığın inkişafı məsələlərinə dair respublika müşavirəsində qeyd edilib ki, pambıqçılığın ölkə iqtisadiyyatı üçün böyük faydası var - ilk növbədə, məşğulluq, ölkəmizə valyuta gətirir, qeyri-neft sektorunu, qeyri-neft sənayesini inkişaf etdirir, yerli istehsala təkan verir, nəinki pambıqçılıq rayonlarında, digər rayonlarda da iş yerləri yaradır. Azərbaycan bu gün pambıqçılıqla bağlı inkişaf templərinə görə dünyada lider ölkədir. İnanmıram dünyada ikinci ölkə tapılsın ki, iki il ərzində pambıq tədarükünü altı dəfədən çox artıra bilsin.

Ağcabədi rayonunun Yeni Qaradolaq kəndindən olan fermer Tofiq İsmayılov bir neçə ildir ki, pambıqçılıqla məşğul olur. Keçən il hər hektardan 41,2 sentner olmaqla 180 ton məhsul götürən fermer, bu il də çiyid səpininə ciddi hazırlaşıb. Havaların səpin üçün əlverişli keçməsi bunun üçün yaxşı imkan yaradıb.

Tofiq İsmayılov bildirdi ki, ötən il "MKT İstehsalat Kommersiya" MMC ilə müqavilə əsasında 40 hektarda pambıq becərmişəm. Pambığın becərilməsində suvarma, gübrələmə, kultivasiya, zərərverici və xəstəliklərə qarşı mübarizə, ucvurma və sair kimi aqrotexniki tədbirlər vaxtında həyata keçirilib. Odur ki, tarlalarda bol məhsul yetişdirdik. Pambıq yığımı başa çatanda hər hektardan məhsuldarlıq 50 sentnerdən yüksək oldu. Ölkəmizdə pambıqçılığın inkişafına göstərilən dövlət qayğısından bəhrələnərək, bu il pambıq sahələrini daha da genişləndirmişik".

Çəkdiyimiz zəhmət bir çox ailələrə ruzi-bərəkət qismət elədi. Əməyim yüksək qiymətləndirilərək mən 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edildim. Bu mükafat bütün əmək adamlarının zəhmətinə verilən ən yüksək qiymət kimi dəyərləndirilir və eyni zamanda, onlarda böyük ruh yüksəkliyi yaradır. İnsanlar başa düşürlər ki, zəhmət çəkən hər bir kəsin əməyi dövlətimiz tərəfindən layiqincə qiymətləndirilir.



Fermer daha sonra vurğuladı ki, pambığın alış qiymətinin qaldırılması məhsul istehsalına marağı daha da artıracaq. Xam pambığın alış qiymətlərinin hər ton üçün 100-110 manat artırılması pambıqçılıqla məşğul olan fermerləri məhsul istehsalına daha da həvəsləndirib.

Söhbət zamanı fermer dedi ki, mən uzun illərdir ki, kənd təsərrüfatı sahəsində çalışıram, torpaq adamıyam və fəaliyyətimin əsas sahəsi həmişə pambıqçılıq olub. Ancaq açığını deyim ki, əvvəlki illərdə nəticələrimiz o qədər də yaxşı deyildi. Texnikadan, dərmanlardan, sudan çətinlik çəkirdik. Son bir neçə ildə pambıqçılığın inkişaf etdirilməsi bizə geniş imkanlar yaratdı.

Fermer Tofiq İsmayılov daha sonra qeyd etdi ki, ölkəmizdə pambıqçılığın dirçəldilməsi biz fermerlərin sevincinə səbəb olub. Pambıqçılığa göstərilən dövlət qayğısından bəhrələnərək, əkin sahələrində aqrotexniki tədbirləri ardıcıl həyata keçiririk. Verilən subsidiyanı da nəzərə alsaq, keçən ilki qazancımız 5 min manatdan çox olub. Yaz tarla işlərini aqrotexniki müddətdə başa çatdırmaq üçün lazım olan texnika və səpin aqreqatları saz vəziyyətə gətirilib. Yaxşı bilirik ki, bol məhsul həm də yüksək qazanc deməkdir.

**Salman ALIOĞLU,**
**"Respublika".**